# Ulu Öndərin vəsiyyətinə əməl etdik

**İnsanın həyatında bəzən elə anlar olur ki, onun bir ömür boyu yol yoldaşına çevrilir. O anın fərəhi, qüruru ilə yaşayıb yaradır, həyata bağlanır, özünü xoşbəxt sanırsan. Nə yaxşı ki, mənim də taleyimdə elə bir an yaşanıb.**



Birinci Qarabağ müharibəsi başlayanda 7 yaşım vardı. Nənəmlə anam hər gün televizorun qarşısında oturub, göz yaşları içində ermənilərə lənət oxuyurdular. Və bir də tez-tez atamın "yenə şəhidimiz var" deməsi məndə ermənilərə qarşı nifrət və qəzəb oyatmışdı. Nənəmi qucaqlayıb, "qorxmayın, mən ermənilləri öldürəcəm", - deyərdim. Böyüdükcə içimdəki qəzəb də böyüdü. Qət etdim ki, hərbçi olmalıyam. Valideynlərim də mənimlə razılaşdılar. 9-cu sinifdən C.Naxçıvanski adına hərbi liseydə təhsil almağa başladım. Çətin və şərəfli hərbçi peşəsinə aparan yol başlanğıcını buradan götürür. Üçillik lisey həyatım mənim iradə və dözümümün sınağı oldu. Bir də həyatımın unudulmaz anını yaşadım lisey illərində.

2001-ci ildə liseyin son sinfində oxuyurdum. Həmin il liseyimizin 30 illik yubileyi respublika səviyyəsində qeyd olunurdu. Yubiley tədbiri "Gülüstan" sarayında keçiriləcəkdi. Tədbirə liseyimizdən 30 şagird gedəcəkdi. Bir gün qalmış tədbirdə iştirak edəcək şagirdlərin adları oxundu. Siyahıda öz adımı eşidəndə çox sevindim. Bildirdim ki, tədbirdə çoxlarının görmək, eşitmək istədiyi Ulu Öndərimiz Heydər Əliyev iştirak edəcək. Atamın həmişə haqqında çox böyük ehtiramla danışdığı o böyük insanı görəcəkdim. O anı səbirsizliklə gözləyirdim...

Tədbir başlandı. Ulu Öndərin gəlişi gurultulu alqışlarla qarşılandı. O dahi insanın səsi hələ də qulağımdadır: "...Mən bilirdim gələcəkdə Azərbaycanın milli hərbi kadrlara ehtiyacı olacaq. Ona görə də bu məktəbi yaratdım. Çətinliklə də olsa buna nail oldum. Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax bu cür baxacağam".

Daha sonra dedi ki, mən sizlərlə fəxr edirəm. Bilirəm ki, bu gün Azərbaycanın qarşılaşdığı taleyüklü məsələləri məhz C.Naxçıvanski adına liseyin yetirmələri olan Azərbaycan Silahlı Qüvvələrinin zabitləri həll edəcəklər. Azərbaycanın güclü ordusu, ordunun zabitləri isə öz peşəsini, Vətənini sevən hərbçilər olmalıdır. Müstəqil dövlətimizin suverenliyi, torpaqlarımızın işğaldan azad edilməsi sizlərin hərbi bilik və bacarığınızdan və bir də böyük Vətən sevginizdən asılıdır. Bu gün Azərbaycanın əsl igid oğullara ehtiyacı var. Sizlərin üzərinizə böyük məsuliyyət düşür...

Qürurla tarixi şəxsiyyətin, Heydər Əliyevin nitqini dinləyir, məsuliyyətimizin böyüklüyünü dərk edirdik...

Tribunada Ulu Öndərin özünü pis hiss etməsi, nitqini yarımçıq qoyması və yenidən tribunaya qayıdıb qaldığı yerdən sözünü tamamlaması hamımızı heyrətləndirdi. Səhhətindəki narahatlıq onu məğlub edə bilməmişdi. Belə ki, Heydər Əliyev özünəməxsus şux yerişlə tribunaya qalxdı və yarımçıq qoyduğu cümləsini tamamladı. Onun iradəsi, zəkası və natiqlik qabiliyyəti qarşısında heyran qaldıq. Ulu Öndər Heydər Əliyev yenidən tribunaya qayıtması ilə bizlərə bir daha mətinlik, mübarizlik dərsi verdi. Bu dərsi isə çətin anda zabitinə örnək ola bilən bir general qətiyyəti, iradəsi ilə verdi.

Liseyimizin 30 illik yubileyindəki nitqi dahi Liderimizin Azərbaycan zabitinə bir növ nəsihəti, vəsiyyəti, həyatımızın isə ən unudulmaz anı kimi bir ömür bizimlə yaşayacaq xatirə olaraq qalır.

Bu gün çox böyük qürurla deyirəm, ruhun şad olsun, Ulu Öndər! Biz vəsiyyətinə əməl etdik. Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Sizin arzularınızı gerçəkləşdirdi. Bu gün Azərbaycanın güclü ordusu və hərbi biliklərə mükəmməl yiyələnən böyük zabit heyəti var. Azərbaycan tarixinə qalib xalq qürurunu həkk edən oğulların önündə məhz Cəmşid Naxçıvanski adına hərbi liseyin yetirmələri olan biz zabitlər də gedirdik. Azərbaycan Ordusunun zabitləri Sizdən öyrənərək əsgərinə nümunə olmağı bacardı. 44 günlük Vətən müharibəsində şəhid olan zabitlərimizin hər biri bir qəhrəmanlıq dastanı yazdı. Biz Sizdən öyrəndik qəhrəmanlığı, ən çətin anda xalqına arxa olmağı, dövləti, Vətəni üçün canımızı fəda etməyi...

Bu gün Azərbaycan qüdrətli bir dövlətdir. Və Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordularından biridir. Fəxr edirəm ki, Vətəninə xidmət edən Azərbaycan Ordusunun zabitiyəm.

***Sadiq ƏFƏNDİYEV,***
***Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotu,***
***polkovnik-leytenant,***
***44 günlük Vətən müharibəsinin veteranı***

Azərbaycan.- 2025.- 14 iyun (№ 121).- S.5.